**UOT 745/749**

***Tural Ağayev***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:* tural.agayev.94@mail.ru**

# AZƏRBAYCAN ZƏRGƏRLİYİNDƏ ŞƏBƏKƏ TEXNİKASI

**Xülasə**: Bu məqalədə Azərbaycan zərgərliyinin qədim zamanlardan bu günümüzədək keçdiyi bütün inkişaf mərhələləri araşdırılmışdır.Həmçinin Azərbaycan zərgərliyi və şəbəkə texnikasının bütün texnika və bədii xüsusiyyətlərinin özünəməxsusluğu ön plana çəkilmişdir.

**Açar sözlər:** Azərbaycan zərgərliyi, şəbəkə, simvollar, milli ornamentlər, mineralistika, qədim, dekorativ - tətbiqi sənət, mədəniyyət, zərgərlik nümunələri, metal məmulatları.

Azərbaycanda dekorativ-tətbiqi sənətin öndə gedən sahələrindən biri də zərgərlikdir. Azərbaycan zərgərliyi qədim zamanlardan formalaşaraq bu günümüzə gəlib çatmışdır. Azərbaycan zərgərliyində bəzəklər şərti təsvir edilirdi və rəmzi mənada formalaşmışdı. Arxeoloji qazıntılar nəticəsində Azərbaycan ərazisində çoxlu sayda mis, tunc, gümüş və qızıl zərgərlik nümunələri aşkara çıxarılmışdır. Əsrlərin yaradıcılıq süzgəcində püxtələşən dekorativ nümunələr əfsanəvi gözəllik aləmi yaratmışdır. Milli zərgərlik nümunələri klassiklərin, səyyahların, tacirlərin və eləcə də müxtəlif peşə sahiblərinin xatirələrində silinməz iz buraxmaqdadır.

XIX – XX əsrlərdə Azərbaycan zərgərliyi təkan mərhələsinə qədəm qoyur. Belə ki, bu əsrlərdə zərgərliyin bir çox texnikaları inkişaf etməyə başlayır. Bunların içində ən çox şəbəkə diqqəti cəlb edir.

Hələ XIX əsrin ikinci yarısında maddi mədəniyyət nümunələrinə artan maraq nəticəsində Rusiya və Avropa ziyalıları Azərbaycan sənətkarlığını onun maddi sərvətləri mənbəyindən, irsi bədii zəminindən, etnik mənşəyindən, flora və faunasından ayrılıqda, təsadüfi materiallar əsasında öyrənirdilər(5,səh.49). XIX əsrdə maddi mədəniyyət nümunələri ayrı-ayrı şəxslərin əlində toplanırdı. Bu da getdikcə şəxsi kolleksiyaların yaranmasına gətirib çıxartdı və həmçinin həmin şəxslərin daha da zənginləşməsinə səbəb oldu. Bu kolleksiyalar dünyanın müxtəlif ölkələrində formalaşmışdır. Çox təəssüflər olsun ki, bu zərgərlik nümunələrinin əksəriyyəti haqqında məlumatlar ayrı-ayrı Qafqaz xalqlarının eləcə də Türkiyə və İranın adına yazılırdı. Bu yanlışlıq təkcə zərgərlik sənətində deyil həmçinin digər sənət sahələrində də aparılırdı. Azərbaycan mədəniyyəti haqqında yaradılmış belə bir yanlışlıq heç də təsadüfi deyildir. Çünki, bunları Azərbaycan xalqına düşmən

olan digər xalqların təxribatı kimi qiymətləndirilməsi daha düzgün hesab etmək olar.

Şəbəkə texnikası Azərbaycan ərazisində qədim zamanlardan inkişaf etməyə başlamışdır. Belə ki, bu texnikaların forma və simvolları özünü bədii metalda da göstərirdi. Avropalıların diqqətini isə ən çox çəkən səbəb bu texnikada olan hədsiz incəlik xüsusi plastik keçidlər və həmçinin naxışların simvolistik mənaları idi. Şəbəkədə bütün formalar incə, hətta sapdan nazik hissələrlə sanki ştrixlənmiş kimi bir-birilərinə paralel şəkildə yığılırdı. Hələ xanlıqlar dövründə buna misal olaraq kifayət qədər zərgərlik nümunələrini görə bilərik. XIX – XX əsrlərdə zərgərlik nümunələrinə tələbatın artması sənətdə yeni metodların yaranmasına səbəb oldu. Bu da sifarişçilərin maraq dairələrini daha da əhatələmək üçün mükəmməl vasitə idi(5,səh.51). Azərbaycan zərgərliyində işlənən ornamentlər xalqımızın milli mentalitetindən, mədəniyyətindən, milli adət-ənənələrindən xəbər verir. Belə ki ornamentlər sadə və dekorativ xüsusiyyət vermək üçün deyil, həmçinin simvolik xüsusiyyətlər kəsb edirdi. Azərbaycan ustaları tərəfindən üzüklər, bilərziklər, boyunbağılar, qayış, geyim üzlükləri xüsusi peşəkarlıqla hazırlanırdı. Belə ki bu məmulatlara baxdıqda aydın şəkildə neçə yaşda olan insan üçün hazırlandığı bəlli olurdu. Azərbaycan zərgərliyi o dövrdə Azərbaycan milli geyim dəbinə təsir edən amillərdən biri idi. Həmçinin onu da qeyd edə bilərik ki, Azərbaycan dekorativ-tətbiqi sənəti bir-birlərinə qarşılıqlı sürətdə təsir edirdilər. Danışdığımız təsiri zərgərlikdə də görə bilərik. Zərgərlik sənətində istifadə olunan ornamentlər, toxuculuq, xalça, dulusçuluqda və həmçinin bədii metal sənətində də öz əksini tapır. Bu da vahid milli təfəkkürün olması ilə bağlı idi. Çünki, bu ornamentlər simvolik xarakter daşıyırdı və bu xalqın tarixi köklərinə əsaslanırdı. Azərbaycan zərgərlik nümunələri hazırda dünyanın bir çox muzeylərini bəzəyir. Buna baxmayaraq əksər sənət nümunələrimiz yuxarıda qeyd olunduğu kimi Azərbaycan adı ilə deyil, fars, türk və. s adlarla təqdim olunur. Diqqətlə bu sənət nümunələrinə baxdıqda adları çəkilmiş millətlərin zərgərlik nümunələri ilə ortaq cəhətləri çoxdur. Təbii ki, buna səbəb bizim eyni zamanda şərqdə məskunlaşmağımız ilə bağlıdır. Mütəxəssis yanaşması ilə aydın şəkildə Azərbaycan zərgərliyini digər xalqların zərgərliyindən fərqləndirə bilərik. Belə ki, ən əsas fərq işlənən ornamentlərin milli ornamentlərimizin olması və sujetli zərgərlik nümunələrində də məhz Azərbaycan yazarlarına, əfsanələrinə söykənməsidir. Misal olaraq Nizaminin Xəmsəsini nümunə göstərmək olar. Simvolik cəhətdən ən çox işlənən forma buta olmuşdur. Təbii ki, butanın bir növü deyil, əksər növləri hətta xalçaçılıqda da istifadə edilən növlərindən zərgərlikdə də istifadə edildiyini görə bilərik. Hazırda müasir zərgərlikdə də bu formalardan istifadə olunur. Xüsusilə də şəbəkə texnikası ilə yaradılmış zərgərlik nümunələrində bunu görə bilirik. Bu texnika imkan yaradır ki, sənətkar kifayət qədər simvolik ornamentlərdən istifadə edə bilsin. Azərbaycan zərgərliyinin araşdırılması 60-70–ci illərdə tədqiq edilməyə başlamışdır. Belə ki, bu dövrdə Azərbaycan ərazisində arxeoloji qazıntılara təkan verildi. Arxeoloqlar külli miqdarda zərgərlik nümunələri aşkara çıxartdılar. Tapılmış zərgərlik nümunələri

dövrlərə görə müxtəlif metallardan hazırlanmışdır. Bu metallar arasında ən çox tunc, mis, gümüş və qızıl olmuşdur. 60-70–ci illərin arxeoloji qazıntıları bu sahədə məqalə, jurnal və. s elmi mənbələrin yaranmasına səbəb oldu. Məhz bu sahə üzrə sənətşünasların kifayət qədər maddi bazanın olması elmi tədqiqatların yüksək səviyyədə aparılmasına nail ola bildilər. Hazırda da bu mənbələrdən həmin dövrdəki sənətşünaslarımız istifadə edirlər. Azərbaycanda aparılmış bu arxeoloji qazıntılardan tapılan məmulatları təkcə bizim arxeoloqlar tərəfindən deyil, həmçinin xarici ekspertlər tərəfindən də qiymətləndirilərək dolğun faktlar əldə edilə bilmişdir. Bu ərazilərdə həmçinin daş-qaşdan istifadə də kifayət qədər çox olmuşdur. Zərgərlik sənəti özü istifadə olunan materiallara əsasən 2 yerə ayrılır. Bunlardan birincisi sırf gümüşdən istifadə edilərək hazırlananlar bunlara gümüş bəndlik, ikincisi isə sırf qızıl məmulatından hazırlanan məmulatlar buna isə sırf zərgərlik deyilir(5,səh.50). Zərgərlik sənətinin digər metal sənətlərindən əsas fərqi ondan ibarət olmuşdur ki, bu sənət növü sırf şəhərlərə aid idi. Kəndlərdə zərgərlik sənəti zəif inkişaf etmişdir. Belə ki, iri kəndləri istisna etmək lazımdır. Bu gün böyük kəndlərə misal olaraq Lahıc, Basqal və.s kimi kəndləri adlarını çəkə bilərik.

Azərbaycanda zərgərlik sənəti çox qədim kökə malikdir. İlk tapılan zərgərlik nümunələrimiz eramızdan əvvəl I minilliyə aiddir. Tapılmış nümunələrin arasında daha çox sırğa, üzük, ayaq və əl bilərzikləri, boyunbağılar, qayış və.s olmuşdular(2,səh.23).

Ən qədim nümunələr əsasən bir texnika ilə hazırlanırdı. Bu döymə üsulu ilə hazırlanan məmulatlar idi. Ən əsas istifadə olunan materiallar isə tunc olmuşdur. Tuncdan ən çox kəmərlər hazırlanırdı. Döymə üsulu ilə hazırlanmış tunc kəmərlər dövrü üçün ən qiymətli nümunələr sayılırdı. Danışdığımız dövrün ustaları tərəfindən işlənmiş zərgərlik nümunələri həqiqətən də öz gözəlliyi ilə insanı heyran edirdi.

Ərəb və fars dilində yazılan mənbələrdə IX-X əsrlərə aid olan Azərbaycan zərgərliyi haqqında məlumatlara təsadüf edilir. Burada bir çox şəhərlərimizin adı qeyd olunur. Misal olaraq Bərdə, Gəncə, Naxçıvan və. s şəhərlərin zənginliyi barədə məlumat yazılmışdır. İbn-Haykəlin qeydlərinə əsasən məlum olur ki, IX-X əsrin Azərbaycan feodalları zərgərlərə təkcə boyunbağı, üzük, toqqa və. s zinət əşyaları deyil, həmçinin qızıl və gümüşdən camlar, qablar da sifariş edirdilər. Bu dövrdə Azərbaycan ərazisində ticarət güclü inkişaf etmişdir. Belə ki, zərgərlərimizin istifadə etdikləri materiallar yəni qızıl, gümüş Tiflisdən, Rusiyadan, Türkiyədən və İrandan gətirilirdi.

Metal işləmə sənətinin incəliyi ilə seçilən sahəsi zərgərlik və gümüşbəndlik sənəti idi. Bu dövrə əsasən şöhrət qazanmış şəhərlər Bakı, Şamaxı, Gəncə və Nuxa olmuşdur. Bundan əlavə Təbriz və Bərdədə də bu sənət inkişaf etmişdir. Bakı və Şamaxı zərgərlik nümunələri minalı olmasına görə şöhrət qazanmışdır(5,səh.49). Gəncə və Naxçıvan zərgərliyi isə şəbəkələri ilə şöhrət qazanmışdır. Hər iki qrup zərgərlik nümunələrinin peşəkar işləməsi öz incəliyi ilə göz oxşayır. Zərgərlikdə təkcə qaşlı və qaşsız üzüklər deyil, həmçinin baş geyimləri, xəncər başlıqları,

tapanca tutacaqları, at sinəbəndi, at yüyəninin bəzəkləri, badələr, qutular və s. əşyalar hazırlanırdı

Araşdırmalara görə qədim Azərbaycanda misin aşkara çıxması ibtidai icma dövründə əhalinin iqtisadi təsərrüfat, ictimai və mədəni həyatında böyük irəliləyiş əldə etməsinə səbəb olmuşdur. Belə bir halda insanlar digər metalların da axtarışına sürətlə başlayırlar. Bu axtarışlar uğurla nəticələnir. Misal olaraq qurğuşun, qalay, marqans metallarının kəşfi cəmiyyətin bir addım da önə, yeni bir dövrə, yəni tunc dövrünün başlanmasına səbəb olmuşdur.(1,səh.30).

Tunc dövründə insanlar misdən tapılmış digər metallarla birgə əridərək daha mükəmməl və yeni keyfiyyətli metalın əldə olunmasına nail olmuşdurlar.(1,səh.30). Göstərilən bu faktlar bədii metalın sürətlə inkişafına zəmin yaratmışdır. Alimlərin araşdırmalarına əsaslanaraq deyə bilərik ki, Azərbaycan bədii metalının gələcək dövrlərdə mütərəqqi inkişafı, məhz tunc dövründən sonra mərhələli şəkildə zənginləşmişdir.

Bütün bu sadalanan faktlar tədqiqatımızın aktualığının göstəricisidir. Tədqiqatda Azərbaycan zərgərliyi və ən əsas da şəbəkə texnikasının bütün texnika və bədii xüsusiyyətlərinin özünəməxsusluğu nəzərə çatdırılır.

Tarix boyu bir çox alimlərimiz və mütəxəssislərimiz Azərbaycan bədii metalı mövzusunda onlarla araşdırmalar aparmışdılar. Zəngin təbiətə məxsus olan Azərbaycan təsviri incəsənət və dekorativ tətbiqi sənət üzrə kifayət qədər sürətli inkişaf etmişdir ki, təkcə bizim tədqiqatçıların deyil xarici tədqiqatçıların da nəzərindən qaçmamışdır. Xüsusən də SSRİ dövrü zamanı rus alimləri Azərbaycanın mədəniyyəti haqqında böyük araşdırmalar aparılmışdı(5,səh.48)

Beləliklə bütün faktlar bunu göstərir ki, Azərbaycan zərgərlik sənəti hələ keçmiş dövrlərdən digər ölkələrin diqqətini çəkmiş və maraq dairəsində olmuşdur. XIX-XX əsrlərin sənət nümunələri isə hazırda da gündəmdə olmasını və ələlxusda şəbəkə texnikası ilə işlənmiş zərgərlik nümunələrinin önəm və əhəmiyyət daşımasının şahidi olduq. Azərbaycan zərgərliyinin incisi olan şəbəkə nümunələri dünya miqyasında diqqətli olması onun digər ölkələrin şəbəkəsindən fərqli olmasının qənaətinə gələ bilərik. Bu sənətin öz önəmini itirməyəcəyinə və daha da inkişaf edəcəyinə qətiyyətlə güvənə bilərik.

## Ədəbiyyat:

1. Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan İncəsənəti. Bakı: 1992
2. Salamzadə Ə.R., Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Bakı: 1977
3. Abdulova Gülzadə. Azərbaycan qadın geyim bəzəkləri // "Azərbaycan Xalçaları" məqalələr toplusu- Bakı: 2017
4. Zamanov Nadir. Düşündürən naxışlar. Bakı: 1981
5. Əsədova S. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik incəsənəti. Bakı: 1978
6. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı: 1999

**Турал Агаев**

## Ювелирные изделия Азербайджана, выполненные в стиле шебеке

### Резюме

В этой статье рассматриваются исторические этапы развития азербайджанских ювелирных изделий, начиная с древних времен по сегодняшний день. Также отмечена особенность всех технических и художественных особенностей азербайджанской ювелирной техники и техники изделий, выполненных в стиле шебеке.

**Ключевые слова:** ювелирные изделия Азербайджана, шебеке, символы, национальные орнаменты, минералистика, старый, декоративно-прикладное искусство, культура, ювелирные изделия, металлические изделия.

**Tural Agayev**

## Jewelery of Azerbaijan made in Shebeke style

### Summary

All the development stages of Azerbaijani jewelry from ancient times to the present day were searched in this article. As well as the specificity of all technical and artistic features of the Azerbaijani jewelry and networking equipment was in the forefront.

**Keywords**: Azerbaijani jewelery, network, symbols, national ornaments, mineralogy, ancient decorative- applied art, culture, jewelery samples, metal products

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.06.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.06.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 29.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**